# *FİLOLOGİYA*

## Bir düşüncənin söz çalarları

**Solmaz Sərdar qızı Məmmədova**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Bakı Qızlar Universitetinin dosenti*
**E-mail:** applesweet@inbox.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. İ.B. Kazımov,
filol.ü.f.d., dos. İ.M. Məmmədli

**Açar sözlər:** dramaturgiya, yeni dünya, müəllif, bədii yaradıcılıq, söz, ədəbi qəhrəman, mosern, əsər, ədəbiyyat

**Ключевые слова:** драма, новый мир, автор, художественное творчество, слово, литературный герой, мозерн, произведение, литература

**Key words:** drama, new world, author, artistic creation, word, literary hero, mosern, work, literature

Filoloq-pedaqoq Sevinc Rəhimovanın Ağarəhim yaradıcılığına təkrar-təkrar müraciət etməsi ("Ağarəhim dramaturgiyasının hədəfləri", Bakı, 2020; "Ağarəhimin bədii yaradıcılıq fəlsəfəsi", Bakı, 2021) onu göstərir ki, ədəbi prosesin aktual bir hadisəsi diqqət mərkəzindədir. Nəzəri cəhətdən mükəmməl hazırlığı olan ziyalı qələminə məxsus yaradıcılığın müxtəlif cəhətlərini, onların ədəbiyyat aləmində yerini və dəyərini aydınlatmaq bir o qədər də çətin olmadı. Bu irsinin öyrənilməsi, sənətinin estetik məsələləri artıq dəfələrlə tədqiqat obyekti olmuş, peşəkar tənqidçilər tərəfindən haqqında maraqlı mülahizələr söylənilmişdir. Son zamanlar ədəbi prosesdəki süstlüyü canlandıran, problematika cəhətdən mükəmməl və müasirlik baxımından çevik, çoxjanrlı bu yaradıcılıq həm ədəbiyyat tarixi, həm də digər elm sahələri – psixologiya, pedaqogika, tarix, fəlsəfə və s. üçün bənzərsiz material verir və çağdaş bədii yaradıcılığa layiqli nümunələr bəxş edir. "Ağarəhim nəsrinin aspektləri" monoqrafiyasında Sevinc Rəhimova sənətkarın yaradıcılığına maraqlı, fərqli rakursdan yanaşır, sənətin inkişaf meylləri ilə zaman və məkan məfhumlarını əlaqləndirir, yaradıcılığının həyatla harmoniyasına, onun mütərəqqi və mürtəce tərəflərinə diqqəti yönəldir. Yenilənən dünyanın dağılmaqda olan sosial-siyasi-ideoloji-psixoloji-pedaqoji struktur və ehkamlarına müəllifin yanaşma prinsiplərini açıqlayır. Yeni dünyanın insanını əvvəlcədən ədəbi müstəvidə polemikaya qoşur. Qloballaşan, böyük sürətlə rekonstruksiya olunan cəmiyyət yeni yaradılacaq ədəbiyyata sosial sifarişlər göndərməli, yeni estetik meyarlar verməli, yoxsa, ədəbiyyat öz təbii qanunauyğunluqları ilə getməli, ənənə və novatorluq qütbləşməsindəki birincili mövqeyinəmi köklənməli? Müəllif bu suala cavab axtarır və müvəffəqiyyətlə tapır. Şübhəsiz, ədəbiyyat hansı metodoloji təfəkkürə söykənir - söykənsin, lap əzəldən başlıca məqsədi insan və cəmiyyət problemini həll etməkdir. Necə? Müəllif maraqlı mülahizə irəli sürür, vurğulayır ki, tarixə münasibətdə intensiv dəyişmənin ilkin hallarında insan özünü xammala çevirir, dəyərlər və fəaliyyət sistemini mənsub olduğu yeni quruluşun ideologiyasına uyğun həmahəng və ahəngdar görkəmə gətirir (3, s. 122). Ədəbi qəhrəmana gəlincə, o uzun zaman kəsiyində ideoloji monstra lakeylik xidməti üçün yaradılmışdır. Məlumdur ki, yaranışının əzəl tarixində ədəbi mühit, obrazlar, ədəbi tənqid sferası çox miskin, üzücü səciyyə daşıyırdı. Lakin dövr keçdikcə, təcrübə artdıqca yeni

dünya, fərqli zaman, fərqli meyarlar köhnə məzmununu dəyişir, mükəmməl keyfiyyət dəyişmələri ortaya qoyur, kainat, insan və cəmiyyət öz bədii konturlarını cızır, reallığa, həqiqətə üz tutur, insan amili güclənir. Marginaldan tutmuş dünyaya ağalıq iddiasına düşən "böyük" adamlara qədər hər kəs ədəbiyyata vətəndaş olmaq hüququ qazanır. Və Ağarəhim kainatın çalxalanan, silkələnən yaşamında yeni təfəkkür, yeni insan (3, s. 123) yetişdirmək ideyası tərəfdarlarına qoşulur. Beləcə, var-dövlət hərislərinin, onların mənfur niyyətlərinin gətirdiyi törtöküntüləri, əcaib şəkildə dünyaya inteqrasiya adı ilə ədəbiyyata gələnlər mənəvi-əxlaqi natamamlıq səviyyəsindən yuxarı qalxa bilmir. Əsərlərində bu dırnaqarası yenilikləri ağrı-acı ilə həzm-rabedən keçirə bilməyən müəllif ideya, məslək toqquşmasında qələbəsini sonacan qoruyub saxlayır, "meyar şəxsiyyətdir" tezisinin müdafiəçisinə çevrilir. Yaradıcılığının həm ideya-estetik, həm də müasirlik həllinə bacarıqla nail olur. Sevinc Rəhimova Ağarəhim yaradıcılığının aspektlərini izləyərkən onun fəlsəfi baxışlarını da diqqətdə saxlayır və maraqlı mülahizələr söyləyir: "Ağarəhim yaradıcılıq fəaliyyətinə varlığı ilə bağlı, ədəbiyyata fanatikcəsinə vurğun məntiqi mütəfəkkir və qələm sahibidir . Bəli, mütəfəkkir! O, fəlsəfəni bütün elmlərin, o cümlədən, ədəbiyyatın əsasını qoyur. Ona görə ədəbiyyat həyatın özü, fəlsəfə onun elmi çözümüdür! Azadlığın mahiyyəti, həqiqət və ədalət, xoşbəxtlik və bədbəxtlik nədir kimi fəlsəfi düşüncələrin mahiyyətinə Ağarəhimin əsərlərində ötəri də olsa, diqqət yetirək: Azadlıq insanın mənindədir. Həqiqət və ədalət həyatın mahiyyətidir... Xoşbəxt o adamdır ki, qəbahətləri könül mülkündən qovmağı bacarır. Qəbahətlər adasını fəzilətlər mülkünə çevirə bilir. Xoşbəxtlik axtarışı nasir-dramaturqun bir çox əsərlərinin leytmotivini təşkil edir. Onun aləmində azadlıq daxili sərbəstlikdir, müstəqillikdir, əzmkarlıqdır ləzzəti! Xoşbəxtlikdir, səadətdir nəticəsi! İnsan o zaman azad olur ki, mürgü döyən vicdanı oyansın, düşüncələrində, əməllərində daim yaradanını başı üstə görə bilsin! (3, s. 129).

S. Rəhimova Ağarəhimin imzasından danışarkən ilk diqqəti çəkən cəhət həyat təcrübəsinin yüksək idrakının, müntəzəm mütaliəsinin, dünyada və cəmiyyətdə gedən siyasi-iqtisaditarixi dəyişmələrə yaradıcı mövqeyinin kamilliyi ilə üzə çıxır. Onun içində həyat qaynayır, çalxalanır. Ağarəhim ideya adamıdır. Onun yaradıcılıq mənbəyi həyatdır. O, keçən əsrin sonlarında zamanın problemlərini, ən münasib janr və üslublarla ədəbi mövzulara çevirdi və 90-cı illərdən başlayaraq ədəbiyyatın aparıcı simalarından oldu. Əski dünyadan yeni dünyaya, respotik ideoloji məkandan azad, suveren ideoloji cəbhəyə, o cümlədən ədəbi mühitə keçid bütün yazılarında sərbəst fəaliyyət laboratoriyasının qayəsinə çevrildi. Lakin, onu da qeyd edək ki, Ağarəhim mövzu və problematikada nə qədər novatordursa, sənətin inkişaf məsələlərində bir o qədər ənənəçidir. O, həm dramaturgiyada, həm də nəsrdə milli düşüncənin ən yaxşı ənənələrini qoruyub saxlamaq tərəfdarıdır. Müəllif keçmişin fəxr olunmalı dəyərləri sırasında ədəbi ənənəçiliyi görür, zorla modern ədəbiyyat yaratmaq xatirinə milli ruha, mental dəyərlərə uymayan ədəbi forma və üslublara bir qədər skeptik yanaşır. Ona görə ədəbiyyatı yaradan xalqın ruhu, rəftar və dəyərləri buna imkan vermirsə, modernbazlıq etməyə heç bir ehtiyac yoxdur (S. Rəhimova).

Ağarəhim nəsrinin sənətkarlıq xüsusiyyətləri, təhkiyə və kompozisiya həlli haqda çox danışılıb. Dramaturgiyasına gəlincə, Axundovdan başlayan ədəbi təcrübənin üzərində yaradılan dram əsərləri mükəmməl süjet, kompozisiya həllini tapır, bir neçə süjetli əsərlərində paralel xətlər səbəbiyyət əlaqəsi ilə bir-birinə bağlanır. Bir neçə xətli süjet tamaşaçı, oxucu diqqətini yayındırmır, əksinə, mahir yazar bütün xətləri bir-biri ilə üzvi şəkildə elə bağlaya bilir ki, bəzən lirizm, bəzən sentimentallığı da əlavə etməklə oxucunun diqqət və marağını daha da artırır və bu əsərlər peşəkar qələm adamının şedevr nümunəsinə çevrilir. Ən kiçik dram əsərlərində, birpərdəli ailə-məişət zəminində yazılmış tragikomik səhnələrlə dolu əsərlərində belə di-

namika güclüdür, ehtiraslar toqquşur, konflikt kolliziyaya keçir və estetikanın — dramın canı konflikt-nəzəriyyəsi uğurla öz həllini tapır. Bəzən eyforiya, bəzən sentimentallıq, melodramatik təqdimat, ritorik monoloqlar Cavid, Cabbarlı ənənəçiliyinə yeni bir davam təəssüratı bağışlayır. Parlaq ritorika (nitqin gözəlliyi), pafos, kolliziya və gözlənilməz dönüşlər, əsərə ruh verən dinamika ilə birlikdə bu əsərlər milli ədəbiyyatın ənənələri üzərində ucalan mükəmməl sənət incilərindəndir. Sevinc Rəhimovanın sənətkarın bədii irsinə modern dünyanın inkişaf qanunları kontekstindən yanaşması, müasir meyar və qanunlara istinadı, yeni ədəbi tənqid metodlarından istifadəsi çox maraqlıdır. Tənqidçi Ağarəhimin yaradıcılığını iqtisadi, siyasi, fəlsəfi, maarifçi, ədəbi-bədii paradiqmalar fonunda araşdırır və bu qənaətə gəlir ki, çoxşaxəli yaradıcılıqda həyatın bütün sahələrinə dair deyilmiş fikirlər vardır. Və bu bədii yaradıcılıq yeni ədəbiyyatın ən mütərəqqi cəhətlərini mənimsəməklə novator, tarixi keçmişimizə, əsrlərlə qorunan milli ruha sədaqət göstərərkən isə ənənəçi bir sənətkardır. Lakin, təqlidçi deyildir. O deyir: Mən türk oğlu türkəm! İctimai şüurum da türkdür! (3, s. 66). Və bu ruh yazıçının bütün əsərlərinə hakimdir. Sevinc Rəhimova Ağarəhimin çoxjanrlı yaradıcılığından danışarkən roman, povest, esselərlə yanaşı, kiçik həcmli, lakin, didaktik-tərbiyəvi mahiyyətli hekayələrinə də diqqət yönəldir və bir məqamı nəzərdən qaçırmır: "Geniş bədii fikri qısa və konkret ifadə yazıçıdan böyük istedad, dildən mükəmməl istifadə bacarığı tələb edir" (3, s. 69). Həyatdan aldığı ideyaları bədii söz məkanına gətirmək, yeri gəldikcə, elmiliklə bədiiliyi qovuşdurmaq bu alim-yazarın maraqlı priyomlarındandır. O, fəlsəfəni belə kiçik həcmli hekayələrə daxil etməkdən çəkinmir və buna müvəffəqiyyətlə nail olur. Fəlsəfi təfəkkür sahibi oxucuların idrakı inkişafı üsulu kimi bunu məqsədəuyğun hesab edir. O, həm də pedaqoqdur, hekayənin mənəvi-əxlaqi dəyərini bilir. Sevinc Rəhimova bu cəhətləri əsas götürərək hekayələrin təhlilinə keçir. Müdrik xalq deyilmlərindən, sərrast söz və ifadələrdən ustalıqla istifadə edən yazıçının hekayələrindən maraqlı epizodlar seçir. "Gələcəyin var" hekayəsinin sonunda uşağa müraciətlə: "100 qanmazla çənə döyməkdənsə, sənin şirin sözünü eşitmək yaxşıdır" — ifadəsi öyrədici, ibrətamiz bir çağırış kimi səslənir. Bundan başqa, "Vüsalın qətiyyəti", "Övlad dərdi", "Balaca Nicat", "Dostum Vüsal", "Cavan oğlan və qoca" və s. hekayələrdə rast gəldiyimiz ibrətamiz fikir və məsəllərin uşaq təfəkkürünün inkişafına müsbət təsiri vardır. Belə kiçik həcmli, lakonik ifadəli əsərlərin uşaq ədəbiyyatı və dərsliklərində yer alması, əslində, bu sahədə olan boşluqların problem səviyyəli olduğunu nəzərə alsaq, çox təqdirəlayiq haldır. Tənqidçi ardıcıllıqla povest və romanlardan söhbət açır. "Ovlaq keçidi", "Qoşa qanaq", "İkili dünyam", "Qasırğa", "Mürdəşirlər adası" romanlarının mövzu və problematikasına yanaşma tərzindən danışır. "Mürdəşirlər adası" əsərini maraqlı süjet və kompozisiya həllinə görə yeni tipli roman adlandırır. Əsərdə ictimai ideologiya ilə ziyalılar, sadə, qüsursuz insanlarla cinayətkarlar üz - üzə durur. İnsan mənəviyyatını bütün bəlaların səbəbi kimi görür "Kabus" romanı isə yarandığı gündən ədəbi tənqidin diqqətini çəkmiş, akademik N. Cəfərov, professor V. Sultanlı və s. tənqidçilər roman haqqında maraqlı mülahizələr söyləmişlər. S. Rəhimova nasirin yazıçı manerasından, ifadə ustalığından söz açır. Sevinc Rəhimovanın "Ağarəhim nəsrinin aspektləri" monoqrafiyası ədəbi tənqid sahəsində axtarışlarının nəticəsidir. Araşdırmanın yeni formatda, fərqli rakursda aparıldığını görürük. Bu tədqiqatı həm müəllifin uğuru, həm də ədəbi tənqidimizin yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirir və tədqiqatçıya uğurlar arzulayırıq.

**Məqalənin aktuallığı.** Ədəbi-bədii düşüncəni yeni təfəkkür işığında öyrənmək və dəyərləndirmək son dövr ədəbi tənqidin başlıca vəzifələrindəndir. Bu gün yaranan tənqid nümunələri sənətin estetik qanunauyğunluqlarına istinad edir və ədəbiyyatşünaslığa uzun illər daxil olmuş sosial-ideoloji materiallardan fərqli yeni bir təhlil üsulu təqdim edilir. Bu təqdim olunan məqalənin elmi aktuallığı və əhəmiyyəti də bununla şərtlənir.

**Məqalənin elmi yeniliyi.** Tədqiqatçı böyük bir yaradıcılığı bütün aspektlərdən, elmi, bədii, pedaqoji, maarifçi, fəlsəfi nöqteyi-nəzərdən öyrənir və yeni tənqid metodu ilə tədqiqata cəlb edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən həm professional sahədə, həm də ədəbi tənqid fənninin tədrisində istifadə oluna bilər.

## Ədəbiyyat


1. S. Rəhimova. Ağarəhim dramaturgiyasının hədəfləri. Bakı, 2020,
2. S. Rəhimova. Ağarəhimin bədii yaradıcılıq fəlsəfəsi, Bakı, 2021
3. S. Rəhimova. Ağarəhim nəsrinin aspektləri, Bakı, 2021.


**С.С. Мамедова**

## Словесные оттенки мысли

## Резюме

Изучение и оценка литературного искусства через призму нового мышления — одна из главных задач моей недавней литературной критики. Возникающие сегодня примеры критики отсылают к эстетическим законам искусства и представляют собой новый метод анализа, отличный от социально-идеологических материалов, много лет входивших в литературоведение. Этим обусловлена научная актуальность и важность данного обзора.

В статье исследователь познает великое творчество со всех сторон, научных, литературных, педагогических, педагогических, философских аспектов и занимается исследованиями с новым методом критики.

**S.S. Mammadova**

## Word shades of a thought

## Summary

Studying and evaluating literary art in the light of new thinking is one of the main tasks of my recent literary criticism. The examples of criticism that emerge today refer to the aesthetic laws of art and present a new method of analysis that differs from the social ideological materials that have entered literary criticism for many years. The scientific relevance and importance of this review is due to this.

In the article, the researcher learns a great creativity from all aspects, scientific, literary, pedagogical, educational, philosophical aspects and engages in research with a new method of criticism.

**Redaksiyaya daxil olub:** 29.04.2022